# KİMLİYİN QİYAMƏT YOLU



*İsmayıl* Həkimli (Padaroğlu)
*Qarabağ müharibəsi veteranı, istefada olan zabit.*

*Gözün aydın Əli Rza,*
*Yatmış qurdun oyandı.*
*Üzü günəşə doğru,*
*Uladı hey (ay), uladı...*

Əli Rza Xələfli kimdir?! Əslində, Əli Rza Xələflinin (Əzizli Əlirza Zal oğlu) kimliyini ədəbi ictimaiyyət və qədirbilən xalqımız yaxşı bilir. Amma, bəlkə də, mənim qədər yox: (heç kim inciməsin xahiş edirəm). Mən Əli Rzanı on səkkiz yaşından, Vətənimizin dilbər guşələrindən biri olan, indi yenə azadlığına qovuşmuş Cəbrayılımızın Xələfli kəndindən od nəfəsli Azərbaycanımızın baş kəndi Bakıya gələndən tanıdım.

İndiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin (o vaxtkı V.İ. Lenin adına ADPİ, sonralar N.Tusi adına) filologiya fakültəsinə qəbul imtahanı verdiyimiz günlərdən. Qarayanız, qıvrım saçlı, qaynar gözlü, bir qədər də çılğın, dil-dil ötən oğlan çağlarından...

**Yataqxana həyatından.** Biz o vaxt Əli Rzanı Müşfiqə daha çox bənzədirdik. Yeri gəlmişkən qeyd edim. O həmin bənzərliyin mənəvi borcunu sonralar ödədi; M.Müşfiq haqqında gözəl məqalələri, silsilə şeirləri ilə.

...Yadıma bir xatirə düşdü. İkinci kursda oxuyurduq. Bizi İmişli rayonuna (deyəsən, Sərxanlı kəndinə) pambıq yığımına aparmışdılar. Müəllimlərimizlə birgə.Rəhbərliyi mərhum professor Mürsəl Həkimova tapşırmışdılar. O vaxtı fakültəmizin dekan müavin idi. Oğlanlar kəndin klubunda, qızlarsa yaxın məsafədəki məktəbdə qalırdı.

Günlərin birində Əli Rza yatmamışdan qabaq klubda kürsüyə çıxıb, böyük bir şövqlə Dirili Qurbanidən uşaqlara şeir oxuyurdu:

Fələk sənlə əlləşməyə bir qabil meydan ola,
Tut əlimdən, fürsət sənin kaş belə ehsan ola,
Gəmiş idim mürşidimə, dərdimə dəva qıla,
Nə biləydim mən gəlincə xakilə yeksan ola.

Üzüuşaqlara, arxası qapıya tərəf olduğundan içəriyə daxil olanı görmək mümkün deyildi. Şeiri o qədər ürəkdən söyləyirdi ki, uşaqlar səssiz-səmirsiz qulaq asırdılar. Bu zaman Mürsəl müəllim içəri daxil oldu. Əli Rzanın odlu-alovlu ifasını və uşaqların maraqla dinlədiyini görüb işarə ilə sakit olmalarını bildirdi. Əli Rza şeri söyləməyini bitirər-bitirməz arxadan Mürsəl müəllimin çəpik çalaraq, özünə məxsus gur səslə:

-Sağ ol, Əlirza bala! Əla... - deyərək pəhləvan cüssəli Mürsəl müəllim Əli Rzanın çiyinlərindən tutub bağrına basdı... Qızlardan birinin atasının dostu həmin qızı və rəfiqələrini qonaq dəvət etmişdi. Sən demə, Mürsəl müəllim də gəlib ki, oğlanlardan birini həmin qızlara qoşsun. Mürsəl müəllim Əlirzanı seçdi, həm də tapşırdı ki, qayıdanda bu gecənin növbəçiliyini də özün edərsən (Mürsəl müəllim oğlanlardan hər gecə qızların qaldığı yerə nəzarət etmək üçün iki nəfər növbətçi ayırırdı),çoxlarımızdan cansız, çəlimsiz olan Əlirzanı.

Sonralar bunun səbəbini soruşanda, Mürsəl müəllim dedi ki, ona Dirili Qurbani zəmanət verdi. Bəli, Mürsəl müəllim Əlirzanın mənəvi saflığını Dədə Qurbani ruhu ilə duymuşdu.

Deyəsən, bir az mətləbdən uzaqlaşdım. İstərdim Əlirzanın bir az da gəncliyindən sizlərə bilgi verim. Onun hələ ilk çağlardan... yazıb-yaratdığını bilirdim. Hələ orta məktəbin aşağı sinifindən oxuyandan yazıları rayon qəzetində çap olunmuşdu, ancaq tələbəliyində yazdıqlarını digər tələbə şairlər kimi kimsəyə göstərmir, öyünmür, lovğalanmırdı, oxumağına da ki, söz yox idi. bütün tələbəlik dövrünü əlaçı olaraq başa vurdu...

Əli Rza 50-ə yaxın kitabın müəllifidir. Hər kitab onun zəkasının nuru, təfəkkürünün məntiqi nəticəsidir. Yaradıcılığının qayəsi,poetik düşüncələri, publisistik yazıları, romanları, povestləri barədə A. Hacıyev, S. Bəşirov, M.Çobanov,M. Çobanlı kimi tədqiqatçı-alimlər, elmi araşdırmaçılar iri həcmli monoqrofiyalarda onun bəşəri hiss və duyğularının poetikasını açmışlar. Qələminin dəyərini və istedadının Allahdan vergi olduğunu təsdiqləmişlər.

Mifoloq, filologiya elmləri doktoru Seyfəddin Rzasoy, bu günkü Əli Rzanın "Qiyamətdən bir gün əvvəl" povestinə yazdığı ön sözündə "o, ədəbiyyat olan yerdə susmağı bacarmayan, daha doğrusu, içindən coşub qalxan söz tufanını sakitləşdirə bilməyən adamdır" - deyir.

Bu coşğunu, çağlayışı, tufanı, etirazı yaradan səbəb nədir? Özü demiş: "Göynəməyən bir yer qaldımı, Bu Vətənin yarasında?. Babamız Nəsimi kimi İki cahana sığmadı Əli Rza... ona görə də kükrədi; "Ula, Boz qurdum, ulartınla çağır yeri, göyü - hayqırdı". Bu hayqırtı gen yaddaşından, qan yaddaşından, daş yaddaşından, sakral dünyasından gəldi Əli Rzanın. Sığmadı nə yerə, nə göyə. Qəndildə qaldı...

"Sığmazlıq, yaxud Göydəmir ürgənin ölümü" nü qələmə aldı. Əslində buna "qələmə aldı" demək düzgün deyil. Göydəmir ürgənin azadlıq təşnəsini simfoniyaya çevirdi - desək daha doğru olar. Ölümünü ölümsüzləşdirdi, əbədi etdi. Müəllif yana-yana, qovrula-qovrula, "Göy ürgə indi də gözlərimin qabağındadır. Qəfil sıçrayışları ilə atılan kəməndlərdən yayınan ürgə, elə bil ki, bu zalım adamlara deyirmiş ki, mən sizin qaydalara sığa bilmərəm... "Gözlərini dolandırıb mənə baxdı. Bəlkə, demək istəyirdi ki, qoymadılar sənin olam"...




Elə o andaca ilk arzularına yetməyən, saf duyğulu Əli Rzanın ümidi qırıldı, işıqlı dünyasına qaranlıq çökdü. Bəlkə də, qiyamətin ilk gününü onda gördü. İndi dünyanın bu nizamsız vaxtında ora-bura vurnuxur. Allahını və bəndələrini tanımayanlara üzünü tutub: "Təbiətdəki harmoniyanı qoruyan qüvvələrin, ahəngi yaradan nizamın sayəsində Yer və Göy vəhdəti Allahlıq mahiyyəti kəsb edir və bunun özü əslində, gözəlliyin yaradıcısı, mənbəyidir. Gözəlliyin mənbəyi məhz burdan mayalanır". - deyir.

Əli Rza Xələflinin bütün yaradıcılığı barədə kiçik bir məqalə ilə məqsədə çatmaq mümkün deyil.

Amma onun "Qiyamətdən bir gün əvvəl" povesti (bəlkə də, romanı) haqqında düşüncələrimi bölüşmək istərdim. Ancaq əvvəlcə onun kimlik haqqında düşüncələrini əsərin qəhrəmanı Turan Türksoyun dilindən vermək istədim:

Povest bir süjet xəttini tamamlayan on iki hekayədən ibarətdir. Hər bir hekayətin əvvəlində povestin əsas qəhrəmanı Turan Türksoyun gündəliyindən epiqraf verilmişdir. Əslində, buna epiqraf demək nə qədər doğrudur, deyə bilmərəm. Amma onu bilirəm ki, gündəlikdən verilən hər bir parça hekayətin canını, cövhərini, mayasını təşkil edir, qoyulan problemlərin kodunu açır.

"Qiyamət yolu"nda Turan Türksoyun gündəliyindən: "Hə ana, yadımdadı... babam deyərdi ki, it ulayanda bəla gələr" Əslində, bu qədimlərdən üzü bəri gələn, sınaqlardan çıxmış həqiqətdir. Bəlkədə, qiyamət yolunun başlanğıcıdır. Əlbəttə, əgər cəmiyyətin mənəvi nizamı dağılıbsa...

Müəllif yazır: "Hər halda Turan Türksoy bədii obrazdır. Əsərdə o, qürur daşıyıcısı olduğu kimi, digər obrazlar - kin, nifrət, tamah obrazları da adlarına uyğun mahiyyət kəsb edir".

Boz Qurd xilaskarlıq, Ana Qurd sədaqətin, cəfakeşliyin, doğub törəmənin rəmzidir.

S. Rzasoy yazır: ... "Əli Rza Xələflinin düşüncəsindən yaranan mətndə Mif (Boz Qurd, Turan), epos (İran, Turan)və tarix (Qarabağ, Şuşa, Xocalı) öz maddi görüntülərilə dekonstruksiya olunaraq qovuşur... ilkin sxem əsasında "Qiyamətdən bir gün əvvəl" yenidən bərpa olunur".

Bu hekayətdə eyni zamanda Türkün totemi (inanc yeri) olan Boz Qurd və Ana Qurdun balasının öz həmcinsi tərəfindən ürəyinin parçalanaraq yeyilməsi Ana Qurdun bir anda həmcinsi üzərinə atılaraq pəncəsilə gözlərini tökməsi, gözlərin titə-titə olub yerə tökülmüş qurdun, ora-bura vurnuxması, Ata Qurdun və Ana Qurdun öz toplumlarından ayrılaraq min bir məşşəqqətlə yol getmələri, bir-birinə dayaq olaraq yeni bir cəmiyyət axtarışları o qədər inandırıcı və təsirli qələmə alınmışdır ki, ciddi psixoloji sarsıntı keçirmədən oxumaq mümkün olmur.

Ana Qurda elə gəlirdi ki, "... daha qalxıb oyana bilməyəcəyinə əmin olduğu əniyindən sonra dünya həmin dünyaya bənzəməyəcək: bəs onda bu dünya, hansı dünya olacaq? Bu dünya onun öz əniyilə yaşayacaq dünya deyilsə, daha kimə lazım olan dünyadır?"

Müəllif bu gərgin, psixoloji anları eyni zamanda Turan Türksoyun anasınında keçirdiyini ürək yanğısıyla təsvir etmişdir. Bu təsvirlər bir anlıq məndə belə təssürrat yaradır ki, həmin məqamlarda Əli Rzanın ürəyinin közü, atəşi qələmini yandırıb, kösəvə döndərib.

Ana Qurd: "bir anlığa dartıb sinəsinə çırpdığı torpağın dəydiyi döşlərinin ucu göynədi. Axı bu döşlərindən onun gözünün qabağında sinəsi parçalanmış əniyi süd əmmişdi".

Bu məqamda, gözləri önündə erməni vandalları tərəfindən süngüyə keçirilən, diri-diri tonqallara atılan, başları kəsilən körpələrin anaları, ana və bacılarımızın göylərə bülənd olan ahları-nalələri ruhumu didik-didik etdi. Günahsız bəndələrin axıdılan qanı qisasa səslədi.

Bütün hekayətləri təhlil etmək fikrim yoxdur. Onu tədqiqatçıların, birdə qədirbilən oxucularımızın öhdəsinə verirəm. Amma "Qiyamət yolu"ndan bir parçanı - son akkordu olduğu kimi yazmağı vacib bildim: "Ana əlini təzədən nəvazişlə qurdun belinə çəkdi:-Hə, ümid, Qurdum, ümid. Bundan başqa bizim heç nəyimiz yoxdur. Ana bu sözləri elə dedi ki, bu sözləri bircə qurd eşitdi, bir də özü. Amma bilmədi ki, bu sözləri Tanrıda eşitdi".

Mifoloq-alim S. Rzasoy Əli Rza Xələflini Tənha ozan adlandırır. Deyir ki, "Eşidək tənha ozanın azadlıq nəğməsini! Qulaq verək Allahın bəndəsi Əli Rzaya!"

Məndə deyirəm ki, Əli Rza Xələfli həm dəBoz Qurddur. Heç bir qadağaya, qaydaya sığmayan, zülməzillətə boyun əyməyən, haqsızlığa dözməyən,tələyə düşəndə biləyini gəmirib, azadlığa çaxan Boz Qurd üzü günəşə doğru nəğmələrini hayqıran Boz Qurd.

Müzəffər ordumuz indi işğal altında olan müqəddəs torpaqlarımızı bir-bir azad edir. Zəfərə doğru inamla irəliləyir!.. döyüşçülərin sırasında Dədə Ozanın - Əli Rzanın nəvələri də var.

Gözün aydın Əli Rza Zal oğlu! Səsimizi Tanrı eşidir.